*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (2) 2024*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:21.02.2024*
*Kabul tarihi |Accepted:25.03.2024*
*Yayın tarihi |Published:25.04.2024*
*https://doi.org/10.46868/atdd.2024.*

**Rashad Gardashov**

*https://orcid.org/0000-0001-6512-3771*
*Ph.D. Baku State University, Department of Library Resources and information retrieval systems, Azerbaijan, qardashov@inbox.ru*

*Atıf Künyesi | Citation Info*

Gardashov, R. (2024). Kitabxana-İnformasiya Fəaliyyətinin Elmi Metodiki Təminatında. Akademik Kitabxanaların Rolu *Akademik Tarih ve Düşünce Dergisi, 11* (2), 847-858.

# Kitabxana-İnformasiya Fəaliyyətinin Elmi Metodiki Təminatında Akademik Kitabxanaların Rolu

***Xülasə***

*İnformasiya xidməti informasiya resursu və informasiya məhsulu ilə birbaşa bağlıdır. İnformasiya resursları dedikdə müxtəlif sənədlər, həmçinin informasiya sistemlərində toplanan sənəd axını başa düşülür. İnformasiya resurslarını təşkil edən sənədlərdə onları yaradan insanların bilikləri müxtəlif formalarda əks olunur. İnformasiya resursları insanlar tərəfindən hazırlanan, cəmiyyətdə sosial məqsədlərlə istifadə olunan və müxtəlif formada mövcud olan (ənənəvi və elektron) daşıyıcılar nəzərdə tutulur. Məqalə, müasir kitabxana-informasiya fəaliyyətində son illərdə baş verən mürəkkəb terminoloji, texnoloji və təcrübi problemlərin elmi şəkildə təsnifləşdirilməsi və mütəxəssislərə metodiki dəstəyin təşkili məqsədi daşıyır. Tədqiqatda Ali təhsil müəssisələrinin kitabxanalarının dünya təcrübəsi öyrənilir və Azərbaycanda fəaliyyət göstərən kitabxanaların təcrübəsi ilə müqayisə edilir. Kütləvi kitabxanaların praktik əhəmiyyətini nəzərə alaraq, BDU-nun elmi kitabxanası (Bakı Dövlət Universiteti), Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Kitabxana-İnformasiya Mərkəzi, Bakı Mühəndislik Universitetinin kitabxanası, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Universitetinin kitabxanasının təcrübəsi təhlil edilir.*

***Açar sözlər:*** *Universitet Kitabxanaları, Kitabxana Fondu, Metodik Yardım, Rabitə Mərkəzləri, Standart Nizamnamə, Elektron Kataloq*

https://dergipark.org.tr/tr/pub/atdd

BY NC
Creative Commons Licence

# The Role of Research Libraries in Scientific and Methodological Support of Library and Information Activities

***Abstract***

*An information service is directly related to an information resource and information product. Information resources refer to various documents, as well as the flow of documents collected in information systems. The knowledge of the people who created them is reflected in various forms in the documents that make up information resources. Information resources are intended to be media created by people, used in society for social purposes and existing in various forms (traditional and electronic). The purpose of the article is the scientific classification of the complex of terminology, technology and "practical problems" that have arisen in modern library and information activities in recent years, and the organization of methodological support for specialists. The world experience of libraries of higher educational institutions is studied and compared with the experience of libraries operating in Azerbaijan. Taking into account the practical significance of public libraries, the scientific library of BSU (Baku State University), the Library and Information Center of the Azerbaijan State Pedagogical University (ADPU), the library "Baku Engineering University", " Library of the Azerbaijan State University of Oil and Industry" Work experience was considered library of the Azerbaijan University and compared.*

***Keywords:*** *University Libraries, Library Collection, Methodological Assistance, Communication Centers, Standard Charter, Electronic Catalogue*

## Introduction

İnformasiya xidməti informasiya resursu və informasiya məhsulu ilə birbaşa bağlıdır. İnformasiya resursları dedikdə müxtəlif sənədlər, həmçinin informasiya sistemlərində toplanan sənəd axını başa düşülür. İnformasiya resurslarını təşkil edən sənədlərdə onları yaradan insanların bilikləri müxtəlif formalarda əks olunur. İnformasiya resursları insanlar tərəfindən hazırlanan cəmiyyətdə sosial məqsədlərlə istifadə olunan və müxtəlif formada olan (ənənəvi və elektron) daşıyıcılar başa düşülür (İsmayılov, 2000).

İnformasiya resursları informasiya məhsullarının hazırlanması üçün baza rolunu oynayır. İnformasiya məhsulu insanın intellektual fəaliyyətinin nəticəsi olmaqla, istənilən fiziki xassəyə malik material daşıyıcısında sənədlər, kitablar və proqramlar şəklində yazılıb təsbit olunmalıdır. İnformasiya məhsulu maddi və ya qeyri-maddi formada yayılması üçün istehsalçı tərəfindən hazırlanmış informasiya toplusudur. İnformasiya məhsulunun yayılması digər material məhsulunda olduğu kimi, müəyyən üsullarla həyata keçirilən xidmət vasitəsilə yerinə yetirilir. İnformasiya xidməti informasiya məhsullarının alınması və istifadəçiyə təqdim edilməsi deməkdir. İnformasiya resurslarının və məhsullarının növlərinə görə informasiya xidmətlərinin aşağıdakı tipləri var:

- İnformasiya nəşrlərinin buraxılması;
- Elmi-texniki informasiya xidmətləri;
- Uzaqməsafəli informasiya bazarlarına müraciət (Kərimov, 2008).

İnformasiya texnologiyalarının sürətli inkişafı onların tətbiq sahələrinin daha da genişlənməsinə səbəb olmuşdur. Əgər keçən əsrin 90-cı illərində informasiya sistemlərindən əsasən mühasibat, kadr uçotu və bəzi istehsalat müəssisələrində texnoloji proseslərin avtomatlaşdırılması üçün istifadə olunurdusa, hazırda istehsalın, biznesin, elmin bütün sahələrində tətbiq olunur. Modelləşdirmə metodun konstruktiv həllinə yönəlmiş icra prosesləridir. Model anlayışı müxtəlif bilik sahələrində və həmçinin fəaliyyət sferasında istifadə olunan ölçü və meyardır.

Modelləşdirmə kitabxana fəaliyyətinin ən mühüm və mürəkkəb problemlərinin həlli metodu kimi nəzərdə tutulmuşdur. Kitabxana texnologiyasının modelləşdirilməsi əlaqələri görməyə və tədqiq etməyə, prosesləri, sistemləri, təşkilati strukturu, məlumatı və məlumatları inteqrasiya etməyə, texnoloji dövrlərin ardıcıl görünüşünü təmin etməyə və yaranan problemlərin qiymətləndirilməsi üçün informativ mühit yaratmağa imkan verir. Son illərdə xarici sosial-mədəni və texnoloji mühitin dəyişməsi, fəaliyyətin həyata keçirilməsinin daim yeni vasitələri və üsullarının meydana çıxması ilə bağlı kitabxana işinin getdikcə mürəkkəbləşməsi modelləşdirmə metodunu kitabxanaşünaslığın və kitabxana təcrübəsinin zəruri atributuna çevirir (Kazimi, Oqlu & Qizi 2022).

Yeni nəzəriyyələrin, konsepsiyaların qurulmasına töhfə vermək, innovativ kitabxana texnologiyasının, yeni kitabxana və informasiya məhsul və xidmətlərinin modelləşdirilməsinə imkan verən anlayışlarının nə qədər geniş istifadə olunduğu təkcə bu anlayışların konkret problemlərin öyrənilməsi və həlli üçün istifadəsi deyil, həm də onların kitabxanaların ümumsistem fəaliyyətinə nüfuz etməsi ilə sübut olunur.

Universitet kitabxanalarının informasiya resurslarının modelləşdirilməsi problemi bir-birilə bağlı olan müxtəlif alt fazalardan ibarətdir. Bu tələbləri və problemləri ümumiləşdirərək aşağıdakı formada təqdim etmək olar:

- Kitabxanaçı peşəsi
- Elmi metodiki təminat
- Maddi texniki baza (Kuznetsova, 2009).

Kitabxanaçı peşəsinin məzmununu öyrənərkən ilk öncə kitabxanaçı peşəsinin professioqrammasını tədqiq etmək lazımdır. Professioqramma latın sözü olub, "professio" – ixtisas, "gramma" – yazıram mənasını verir. Burada konkret ixtisasın fəaliyyət dairəsinin təsviri, peşəkar əmək və təlabatlar bir-biri ilə sıx şəkildə təhlil olunur. O, özündə texniki istehsal, iqtisadi, sosial şərtlər daxilində əmək fəaliyyətini, həmçinin psixoloji, fizioloji tələblərin insanın seçdiyi ixtisasa hansı səviyyədə təsir göstərdiyini birləşdirir. Professioqramma hər hansı bir sahədə işləyən mütəxəssislərin müəyyən tələblər daxilində fəaliyyət göstərməsini şərtləndirir. Bu tələbləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- işçinin vəzifə səlahiyyətlərinə olan tələblər;
- iş yerinə olan tələb;
- işçinin gələcək peşəkar fəaliyyət dairəsinə olan tələblər;
- peşəkar təhsil vasitələri: ixtisasın təsnifat dərəcəsinin artırılması.

Professioqrammanın 5 əsas metodoloji prinsipi müəyyənləşdirilmişdir:

- Sistemlilik – professioqrammada işçinin seçdiyi ixtisas üzrə fəaliyyəti, işlədiyi müəssisədə fəaliyyət dairəsinin, fəaliyyət istiqamətinin sistemli şəkildə olması;
- Tamlıq – şəxsiyyətin peşəkar fəaliyyəti zamanı ən vacib keyfiyyətlərdən hesab olunur. Bu zaman psixoloji və fizioloji amillər önə çəkilir.
- Əyanilik – həyata keçirilən və aparılan tədqiqatlar zamanı konkret peşə fəaliyyətində alınan nəticələri əyani təsvir edir.
- Elmilik və müasirlik – aparılan tədqiqatlar metodoloji baxımdan elə işlənib hazırlanmalıdır ki, bu zaman müasir elmi konsepsiyalar, bilik və bacarıqlar öz əksini tapsın.
- Effektivlik – nəticə etibarilə həyata keçirilən tədbirlər, həllini tapan problemlər müasir dövrdə öz əhəmiyyətini qoruyub saxlaya bilsin və ətraf aləm üçün effektiv olsun (Aliyeva & Kazimi, 2022).

Xüsusi qeyd etmək lazımdır ki, universitet kitabxanalarında işləyən kitabxanaçıların digər kiçik rayon kitabxanalarında işləyən kitabxanaçılarla bir çox səviyyə fərqi vardır. Təbiidir ki, Milli Kitabxana müasir komputer kitabxanası və avadanlığı ilə təchiz olunmuşdur (elektron kataloq, verilənlər bazası və s.).

Bu texnikalarla işləyən mütəxəssislərin keyfiyyət göstəriciləri də yüksək olmalıdır. Universitet kitabxanalarında ən mürəkkəb texniki avadanlıqlar surətçıxarma aparatları, çap qurğuları və başqa yüngül texniki avadanlıqlardır ki, bunların öhdəsindən hər bir insan gələ bilər. Amma tələb olunan odur ki, bütün kitabxanalarda komputerlər, verilənlər bazası, elektron kataloq,

elektron poçt ünvanı, məsafədən asılı olmayaraq oxucuya xidmət imkanı olmalıdır. Bütün bu sadalananlar kitabxanaçılıq peşəsinə, onun professioqrammasına təsir göstərən amillərdir. Kitabxanaçı peşəsi həmçinin sosial amillərlə sıx bağlıdır. Çünki kitabxanaçı cəmiyyətin bütün təbəqələri ilə sıx əlaqədə olur.

Kitabxanaçılıq peşəsinin professioqramması əsasən 3 istiqamətdə formalaşır:

- Həyata keçirilən əməliyyatlar;
- Əmək şəraiti;
- Psixoqramma (Rybal'chenko Ye. Opyt formirovaniya informatsionnoy informatsii zovskoy biblioteki. Bibl. forum Ukraina, 2009, № 3, s. 28-31).

Kitabxanaçılıq peşəsinin həyata keçirdiyi əməliyyatlar bir çox amillərlə sıx bağlıdır:

- Oxuculara xidmət, ədəbiyyatın qeydiyyatının aparılması;
- Sərgilərin təşkili, mədəni kütləvi tədbirlərin, müxtəlif mövzular üzrə müzakirələrin təşkili;
- Elektron kataloqların təşkili və xidmət göstərilməsi;
- Elektrondaşıyıcılarda informasiyanın yaradılması və saxlanmasını təmin etmək və s.

Əmək şəraiti isə kitabxanaçı peşəsinə aşağıdakıları düzgün həyata keçirməyi tələb edir: iş yerinin düzgün təşkili, invertarların düzgün yerləşdirilməsi, kitab saxlayıcıların, fondların düzgün qurulması, müxtəlif tədbirlərin keçirilməsi üçün binanın maddi-texniki bazasının düzgün təşkil olunması (Gardashov & Kazimi, 2023).

Buraya kitabxana zallarının düzgün seçilməsi, binadaxili texniki avadanlıqların daim işlək vəziyyətdə olması, binanın düzgün işıqlandırılması, havalandırılması, istirahət guşəsi, bufetin olması və s. aiddir. Psixoqramma: kitabxanaçının vacib fiziki keyfiyyətləri aşağıdakılardır:

- Yaxşı yaddaş – ümumi oxu zallarında kataloqlarda sənədlərin necə yerləşdirilməsini yadda saxlamaq;
- Güclü mütaliə qabiliyyəti – bu qabiliyyət kitabxanaçının çoxlu miqdarda kitabın məzmunu haqqında məlumatlı olmasına imkan yaradır;
- Görmə qabiliyyətinin yüksək olması;
- Güclü düşünmə və analiz qabiliyyəti – daxil olan informasiya haqqında tez, düzgün qərar vermək.

Vacib şəxsi keyfiyyətlərə bunlar daxildir:

- Müəyyən bir iş ətrafında qısa müddətdə fikrini cəmləşdirməyi bacarmalıdır;

- Tez yazıb çap etmək bacarığı (müasir texniki avadanlıqlardan istifadə);
- Uzun sürən fiziki və emosional yüklənmələrə dözmək bacarığı;
- Bütün tip oxuculara eyni səviyyədə xidmət etmək bacarığı;
- Estetik gözəllik bacarığı;
- İntellektual səviyyənin yüksək olması;

Beləliklə, belə bir qənaətə gəlmək olar ki, kitabxanaçılıq peşəsinin vacib cəhətlərindən biri kommunikativlik özünüidarə, insanlara və hadisələrə diqqətli olmaq, irimiqyaslı informasiyalarla işləmək bacarığıdır. Bütün bunlar kitabxanaçıya seçdiyi peşədə düzgün işləmək üçün və cəmiyyətə yararlı olmaq üçün düzgün keyfiyyətdir.

Kitabxanaçı peşəsinin özəlliyi ondan ibarətdir ki, bu peşə özündə keçmişi və gələcəyi birləşdirir. Bu peşə illər, hətta yüz illər boyu qazanılmış təcrübəni əldə rəhbər tutaraq müasir həyatda lazım olan informasiya yeniliklərini həyata keçirir. Bu peşə cəmiyyətin bütün sferalarına və ixtisaslarına düzgün fəaliyyət istiqaməti qurmaqda kömək edir.

Kitabxana-informasiya proseslərinin son dərəcə mürəkkəbləşdiyi, yeni texnologiya ilə zənginləşdiyi bir zamanda kitabxanaçılıq təhsilinin elmi metodik təminatının öhdəsinə çox mühüm vəzifələr düşür. Kitabxana-informasiya fəaliyyətinin elmi metodik təminatı necə olmalıdır?

Bu problem kitabxana ictimaiyyətini düşündürən ən böyük məsələlərdən biridir. Bu günün kitabxanaçılıq təhsilinin elmi-metodik təminatı həmişə daşıdığı mənanı dəyişmiş, xeyli zənginləşmiş və əhatə dairəsi genişlənmişdir. Bu da heç şübhəsiz ki, ilk növbədə kitabxana işinin inkişafı, cəmiyyətdəki informasiya proseslərinə inteqrasiyası ilə sıx əlaqədardır (Kazimi & Guliyeva, 2022).

Nəzəri ədəbiyyatda kitabxanaçılıq təhsilinin elmi metodik təminatı ilə əlaqədar əsas anlayışların ifadəsinə dair bir çox qarışıq fikirlər özünü göstərir. Belə ki, müxtəlif yazılarda "metodik təminat", "metodik rəhbərlik", "metodik iş", "metodik fəaliyyət", "metodik idarəetmə" terminləri ilə əvəz olunur. Kitabxana-informasiya fəaliyyətinin elmi metodik təminatı anlayışının mahiyyətini dərk etmək üçün müasir dövrdə dünya informasiya məkanında baş verən yeni prosesləri, bu proseslərlə əlaqədar kitabxanaçılıq təhsilinin fəaliyyətində meydana gələn konseptual dəyişiklikləri dərindən öyrənmək lazım gəlir.

Müasir dövrdə Kitabxana-İnformasiya fəaliyyətinin elmi metodik təminatı dedikdə metodik mərkəzlər tərəfindən kitabxanaçılıq təhsilinin dövrün tələblərinə uyğun dinamik inkişafına yönəlmiş təşkilati-metodik əməliyyatların hazırlanıb həyata keçirilməsi nəzərdə tutulur.

Kitabxanaçılıq təhsilinin elmi metodik təminatı dedikdə bu sahəni özündə birləşdirən, bir-biri ilə sıx bağlı olan 2 istiqaməti araşdırmaq lazımdır:

- Kitabxana-İnformasiya fəaliyyəti üzrə tədris prosesinin təşkili;
- Kitabxana-İnformasiya fəaliyyəti üzrə elmi tədqiqat işlərinin hazırlanması.

Müasir dövrdə Kitabxana-İnformasiya fəaliyyəti elmi metodik təminat sisteminin ən böyük problemi ölkədə əhaliyə kitabxana xidmətini həyata keçirə bilən yüksək ixtisaslı kadrlarla təmin olunmasıdır. Kitabxana-İnformasiya fəaliyyətinin elmi metodik təminatı öz inkişafının bütün mərhələlərində cəmiyyətdə kitabxana-informasiya infrastrukturunun, kitab və kitabxana işinin, əhaliyə kitabxana xidməti prosesinin ayrılmaz, üzvi bir sahəsi kimi bu prosesə güclü təsir göstərmiş, onun optimallaşdırılmasının nəzəri-metodiki və təşkilatı əsaslarını yaratmışdır. Kitabxanaçılıq təhsilinin elmi metodik təminatını araşdırarkən bu təminatın yaranma tarixinə nəzər salmaq lazımdır (Aliyeva & Kazimi, 2022).

Kitabxana-İnformasiya fəaliyyətinin elmi-metodik təminatında qəbul edilmiş dövlət proqramlarının, qanunların mühüm əhəmiyyəti olmuşdur. Bunların əsas məqsədi "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununda, habelə digər müvafiq hüquqi aktlarda nəzərdə tutulmuş müddəalara uyğun olaraq, kitabxana işi sahəsində dövlət siyasətinin həyata keçirilməsini, ölkədə tarixi-mədəni, ədəbi-bədii, elmi-fəlsəfi sərvətlərin toplanılmasını, mühafizəsini və onlardan istifadə imkanlarının artırılmasını təmin etməkdən ibarətdir. Bundan başqa, kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsi nəticəsində müasir kitabxana-informasiya infrastrukturunun yaradılması, istifadəçilərə göstərilən kitabxana-informasiya xidmətinin dünya standartları səviyyəsinə çatdırılması, əhalinin intellektual potensialının və bilik səviyyəsinin inkişafı, habelə fasiləsiz təmin edilməsi üçün şəraitin yaradılmasından ibarətdir. Dünya təcrübəsi onu göstərir ki, Kitabxana-İnformasiya fəaliyyətinin elmi metodiki təminatı 2 istiqamətdə aparılmalıdır:

- Sahə üzrə elmi metodiki təminatın təşkili
- Fasiləsiz təhsil sisteminin təşkili (Qardaşov, 2018).

Kitabxana-İnformasiya fəaliyyətinin elmi metodik təminatı müəyyən metod və prinsiplər əsasında həyata keçirilməlidir. Buna əsas səbəb bu metod və prinsiplərdə kitabxanaçılıq təhsilinin tam mahiyyətinin əks olunmasıdır. Ümumiyyətlə, kitabxanaçılıq təhsilinin elmi metodik təminatında dünya təcrübəsinin tətbiqi də mühüm əhəmiyyətə malikdir. Kitabxana-İnformasiya

fəaliyyətinin elmi metodik təminatının kitabxanaşünaslıq tədqiqatlarının nəticələrinə əsaslanması cəmiyyətdə kitabxana işinin inkişafında meydana çıxmış obyektiv qanuna uyğunluqların nəzərə alınması deməkdir. Bununla yanaşı, elmilik prinsipi kitabxanaçılıq təhsilinin elmi metodik təminatında analitik iş üsullarının formalaşmasını, tədqiqatlarda irəli sürülmüş tövsiyələrin təcrübəyə tətbiq edilməsini təmin edən proqramların hazırlanması və həyata keçirilməsi ilə əlaqədar işlərin təşkili və idarə edilməsi deməkdir.

Elmilik prinsipi eyni zamanda bu fəaliyyətin idarə olunmasında, xüsusilə metodist əməyinin normalaşmasında, təşkilində, planlaşdırılmasında, uçotunda, maliyyələşdirilməsində, metodik tədbirlərin hazırlanmasında və keçirilməsində texnoloji baxımdan ən səmərəli iş üsullarından, etibarlı nəzəri konsepsiyaya malik və kitabxana təcrübəsində sınaqdan çıxmış metodlardan geniş istifadə edilməsi ilə əlaqədardır.

Müasir dövrdə və yaxın gələcəkdə cəmiyyətdə kitabxanaçılıq fəaliyyətinin getdikcə daha çox informasiyalaşdırma proseslərinə uyğunlaşaraq keyfiyyətcə yeniləşməsi, kitabxana xidmətində müasir informasiya texnologiyasının tətbiqi, şəbəkə texnologiyasının formalaşması və onun dünya informasiya mübadiləsinə daxil olması və s. prosesləri dinamik xarakter aldığından, kitabxanaçılıq təhsilinin elmi metodik təminatı sistemində bütün bu meyillərə adekvat nüfuz edərək dinamik inkişaf edən fəaliyyət sisteminə çevrilməlidir.

Kitabxana-İnformasiya fəaliyyətinin elmi metodik təminatının sistemliliyi prinsipi kitabxanaların metodik təminatının mühüm funksiyalarının, forma, metod və üsullarının təşkili və idarə olunmasının əlaqəliliyi və kompleks xarakterli fəaliyyətə çevrilməsi vəzifələrindən irəli gəlir (Kazimi & Gurbanov, 2022). Bu sistemlilik özünü metodik fəaliyyət prosesində ərazi və sahəvi, ümumi və fərdi, elmi və təcrübi idarəetmə metodlarının mütənasibliyində, kitabxanaçılıq təhsilinin elmi metodik təminatı sisteminin məzmununda isə əhaliyə kitabxana xidmətinin səmərəliliyinə istiqamətləndirilmiş bütün iş üsullarının ahəngdarlığında, bununla yanaşı, mütərəqqi xidmət üsullarının metodik təminatına üstünlük verməsində göstərməlidir.

Sistemlilik prinsipi eyni zamanda kitabxanaların metodik təminatına dair respublika miqyasında kompleks proqramların tərtib edilməsini nəzərdə tutur. Kitabxana-İnformasiya fəaliyyətinin elmi metodik təminatının əlaqələndirilməsi prinsipinin mahiyyəti metodik təminat sisteminə daxil olan mərkəzlərin fəaliyyətinin şəbəkədaxili və şəbəkələrarası səviyyələrdə əlaqələndirilmiş qaydada həyata keçirilməsindən ibarətdir.

Əlaqələndirmə prinsipi özünü daha çox kitabxana işinə dair sahələrarası məlumat bazalarının yaradılmasında, metodik tədbirlərin, o cümlədən elmi konfrans və seminarların, ixtisasartırma

məşğələlərinin təşkilində, metodik vəsaitlərin milli standartlarının hazırlanmasında və tətbiqində göstərə bilər. Əlaqələndirmə prinsipi özünü eyni zamanda metodik mərkəzlərdə kitabxana assosiasiyalarının birgə fəaliyyətində göstərməlidir.

Elmi metodik təminat sisteminin təşkili və idarə olunmasında aparıcı prinsiplərindən biri də ölkənin sosial-iqtisadi və mədəni inkişaf vəzifələrinə tam uyğunlaşdırılmasıdır. Bu prinsipin zəruriliyi respublikada kitabxanaçılıq fəaliyyətinin müasir sosial funksiyalarından irəli gəlir. Belə ki, kitabxanaçılıq təhsilinin elmi metodik təminatı sistemi məzmun, təşkilati və idarəetmə baxımından Azərbaycanda kitabxanaçılıq fəaliyyətinin konkret vəzifələrinə, gələcək inkişaf istiqamətlərinə yönəlməli, bu inkişafı metodik baxımdan təmin etməlidir.

Beləliklə, qeyd etdiyimiz faktlara əsaslanaraq belə qənaətə gəlmək olar:

- Respublikamızda Kitabxana-İnformasiya fəaliyyətinin elmi metodik təminatı müasir tələblərə cavab verən standartlar əsasında qurulmalıdır;
- Kitabxana-İnformasiya fəaliyyətinin elmi metodik təminatı dövlət qanunlarına və proqramlarına əsaslanmalıdır;
- Qabaqcıl dünya təcrübəsindən layiqincə yararlanmaq lazımdır;

Bütün bu faktlar, gəlinən qənaətlər onu deməyə imkan verir ki, Azərbaycanda kitabxanaçılıq təhsilinin elmi metodik təminatı kitabxanaşünaslıq elminin qarşısında duran gələcək vəzifələri müəyyənləşdirməlidir. Kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemi kitabxana işçilərinin ixtisasının artırılması ilə əlaqədar ali təhsil müəssisələrində, metodik mərkəzlərdə, ixtisasartırma kurslarında məşğələlərə kömək məqsədilə xüsusi tədris planları əsasında keçirilməlidir. Respublikamızda kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sisteminin ümumi strategiyasının inkişaf etdirilməsi, vahid iyerarxiya prinsipləri əsasında yeniləşdirilməsi metodik mərkəzlərin bu prosesdə iştirakını tələb edir (Agamirzayev & Seyidli, 2023).

Respublikamızda kitabxanaçı kadrların fasiləsiz təhsil sistemində hazırlanması kitabxana işinin metodik təminat sistemi ilə sıx vəhdətdə bir-birini tamamlayan elmi-təcrübi, pedaqoji və metodiki baxımdan əlaqələndirilmiş sistemli fəaliyyət kimi formalaşmasından ibarətdir. Fasiləsiz kitabxanaçılıq təhsili nədir, bu necə başa düşülməlidir?

Fasiləsiz kitabxanaçılıq təhsilinə aşağıdakılar aiddir:

- Kitabxanaların mütəmadi olaraq yüksək potensiallı və bilikli kadrlarla təmin olunması;

- Kitabxanaçı kadrlara müasir dövrün tələbləri səviyyəsində bilik və bacarıqların çatdırılması mexanizminin yüksək səviyyədə olması;
- Onların yeni peşəkar bacarıqlara uyğunlaşmasını təmin etmək;
- Ölkədə kitabxanaçılıq işinin geniş maddi-texniki bazaya malik olmasını təmin etmək: buraya yeni fikirlər, konsepsiyalar, kitabxanaçı təcrübəsi və kitabxana texnologiyalarının öyrənilməsi daxildir;
- Peşəkar kitabxanaçılıq əlaqələrinin geniş surətdə yayılması Qardaşov, 2018).

## Conclution

Göründüyü kimi, kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil yuxarıda göstərilən müddəaları özündə əks etdirməlidir. Ölkəmizdə dövlət kitabxanaçılıq siyasətinin təhsil mexanizminin yeni mərhələyə qədəm qoyması mütəxəssislərə peşəkar biliklərin verilməsi və maksimum peşə bacarıqlarının öyrədilməsindən ibarətdir. Bütün bunlar ölkədə kitabxanaçılıq işinin modernləşdirilməsini, bu sahədə texniki islahatların aparılmasını vacib tələb kimi qarşıya qoyur (Agamirzayev ve Seidli, 2023).

Həyata keçirilən bu layihələr vahid elmi metodiki əsasa malikdir. Bu layihələrin əsas mahiyyəti cəmiyyətdə kitabxanaçı şəxsiyyətini lazımi səviyyədə qiymətləndirmək, istehsal fəaliyyətinin texniki şərtlərə uyğunlaşdırmaqdan ibarətdir. İstehsal fəaliyyətinin texniki şərtlərə uyğunlaşdırılması o deməkdir ki, uzun illər kitabxanaçılar işlədikləri müəssisələrdə müasir texniki avadanlıqlardan uzaq olmuşlar və kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində hazırlanan kadrlara bu peşə bilik və bacarıqlarının öyrədilməsi günün vacib tələblərindən biridir.

Respublikamızda kitabxanaçı peşəsi üzrə fasiləsiz təhsil aşağıdakı prinsiplər əsasında aparılmalıdır:

- Peşəkar fəaliyyətdə yeni innovativ biliklərin prioritet istiqamət kimi qəbul edilməsi;
- Peşəkar kadr hazırlığında istifadə olunan tədris planları və proqramlarının modifikasiya olunması;
- Bu sahənin digər sahələrə qarşı sosial açıqlığının olması: kitabxanaçılıq peşəsi cəmiyyətin bütün sahələrini əhatə edən elmi biliklərlə sıx əlaqədədir;
- Peşəkar kadr hazırlığında fərdi təhsil;
- Tədris prosesində iştirak edən bütün əməkdaşlara qarşı demokratiklik prinsipinin qorunması.

Beləliklə, respublikamızda kitabxanaçılıq təhsili yeni metod və kontekstdə - yeni prinsiplərin, pedaqoji praktikanın, yeni cəmiyyət üçün yeni kadrların hazırlanması kontekstində

aparılmalıdır (Kazimi & Guliyeva, 2023). Dünya təcrübəsi sübut edir ki, inkişaf etmiş ölkələrdə kitabxanaçıların fasiləsiz təhsil sisteminin və bu peşənin daha dərindən öyrənilməsinin böyük çəkisi fasiləsiz təhsil sisteminin ixtisasartırma mərhələsinin üzərinə düşür. Bu məqsədlə Avropa ölkələrində, ABŞ-da, Rusiyada və b. ölkələrdə iri elmi kitabxanaların bazasında kitabxana işinə dair menecment, treninq, digər kitabxanaçılıq təhsili mərkəzləri yaranır və bu da fasiləsiz təhsil sistemində mühüm əhəmiyyətə malikdir.

**References**

Agamirzayev A., Seidli, N. (2023). Marketingovaya aktivnost' biblioteki). *Naukovo-teoreticheskiy al'manakh Graní, 26* (2), 47-50.

Agamirzayev, A., & Seyidli, N. (2023). The Problem of Pr and Image Competence in the Training of Specialists in Information and Document Management (New Challenges to the Training of Industry Specialists). *Akademik Tarih ve Düşünce Dergisi*, *10* (4), 1145-1157.

Aliyeva, S. A., & Kazimi, P. F. O. (2022). Scientometrics analysis of the academic activities of the Azerbaijan State University of Culture and Arts in 2021-2023 (Some specific features of the activity). *Technium Soc. Sci. J.*, *35*, 224.

İsmayılov, X. (2000). *Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000).* Monoqrafiya.

Kazimi, P. F. O. & Guliyeva, N. A. G. (2022). The concept of reliable information on the global network in times of crisis. *Technium Soc. Sci. J.*, *30*, 742.

Kazimi, P. F. O., & Guliyeva, N. A. G. (2023). Time spent in youth's global information space (problems of satisfaction of reading or information need). *Procedia Computer Science*, *219*, 720-723.

Kazimi, P. F. O., Oqlu, I. I. A., & Qizi, Y. G. Y. (2022). Philosophical view on information theory (The path from the divine to the digital world). *Technium Soc. Sci. J.*, *32*, 724.

Kazimi, P. F., & Gurbanov, A. I. (2022). Faktory, vliyayushchiye na udovletvoronnost' chitateley obsluzhivaniyem v sovremennykh bibliotekakh i yego kachestvom. Nauchnyye i tekhnicheskiye biblioteki, (2), 109-122.

Kərimov, S. (2008). *İnformasiya sistemləri.* Elm.

Kuznetsova, T. YA. (2009). *Bibliotechnyye kadry i segregatsiya: kotoryye reshayut vse.* Nauch. i tekhn. b-ki.

Qardaşov, R. (2018). *Azərbaycanda Kitabxanaçılıq təhsili.* Mütərcim.

*Rybal'chenko Ye. Opyt formirovaniya informatsionnoy informatsii zovskoy biblioteki. Bibl. forum Ukraina,* (2009), 3, 28-31.